# Azərbaycan Cənubi Qafqazın iqtisadi lokomotivinə çevrilib

## Prezident İlham Əliyevin Gürcüstana səfəri mühüm hadisələrlə yadda qaldı

"Azərbaycanın hazırkı geopolitik durumu dövlətimizin regional liderliyini beynəlxalq arenada ən yüksək həddə çatdırıb. Son antiterror tədbirlərindən sonra Azərbaycanın suverenliyinin tam təmin edilməsi ilə Cənubi Qafqazda yaranmış yeni siyasi şərait ölkəmizin mövqelərini daha da möhkəmləndirib".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. Onun fikrincə, dövlət başçısının yürütdüyü mükəmməl xarici siyasət nəticəsində Azərbaycan regionda sabitliyin qarantı olmaqla yanaşı, həm də bu bölgənin iqtisadi yüksəlişinin təminatçısına çevrilib. İşğalçı Ermənistan illərlə regionun iqtisadi layihələrindən kənarda qaldığı halda, Azərbaycan və Gürcüstan Cənubi Qafqazın coğrafi mövqeyini və dünya siyasi xəritəsindəki geopolitik əhəmiyyətini yüksək dəyərləndirərək, bu üstünlüyü inkişafa yönəldib.

Deputat qeyd edib ki, Azərbaycan və gürcü xalqları arasında tarixi köklərə dayanan əlaqələr müstəqillik illərində həm iqtisadi, həm də siyasi baxımdan yüksək səviyyəyə çatıb. "Prezident İlham Əliyevin bölgədə, eyni zamanda dünya siyasi arenasındakı nüfuzu bu əlaqələrin inkişafında müstəsna əhəmiyyət kəsb edib. Hər zaman Azərbaycanın haqlı mövqeyini müdafiə edən Gürcüstan bunların fonunda bütün məsələlərdə ölkəmizin iqtisadi və siyasi dəstəyini hiss edib. Cənubi Qafqaz üçün yeni siyasi şəraitdə Prezident İlham Əliyevin Gürcüstana səfəri xüsusi əhəmiyyət kəsb edirdi. Bu, sıradan bir səfər deyil, hazırkı həssas məqamda regionun gələcəyi üçün böyük əhəmiyyətə malik taleyüklü qərarların qəbul edildiyi tarixi bir görüş idi", - deyə R.Mahmudov əlavə edib.

Onun sözlərinə görə, keçirilmiş görüşlər, verilən bəyanatlar İkinci Qarabağ müharibəsində qələbə qazanan Azərbaycanın Cənubi Qafqazın iqtisadi lokomotivinə çevrildiyini bir daha göstərib. Bu prosesdə Gürcüstanın Azərbaycanla birlikdə olması hər iki xalqa yüksək inkişaf və rifah vəd edir. Prezident İlham Əliyev regionun iqtisadi durumunu dəyərləndirərək qeyd edib ki, Azərbaycanla dost Gürcüstanın birgə həyata keçirdiyi layihələr bu gün bir çox ölkənin enerji və nəqliyyat təhlükəsizliyinə mühüm xidmətlər göstərir.

Deputat Prezident İlham Əliyevin regionun təhlükəsizlik məsələlərinə toxunduğunu xatırladaraq vurğulayıb ki, ölkəmizin rəhbəri Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzrə fəal çalışmağın vacibliyini diqqətə çəkib: "Dövlət başçısı əminliklə qeyd etdi ki, sülhə nail olduğumuz təqdirdə, Cənubi Qafqazda tamamilə yeni siyasi vəziyyət yaranacaq. Şübhəsiz ki, sülh sazişinin imzalanması regionun inkişafına yeni nəfəs verəcək. Dost xalqlar və dövlətlərlə sülhə sonsuz sədaqətini əməli fəaliyyəti ilə sübut edən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında normallaşma prosesindən söhbət açaraq vurğuladı ki, bir neçə ölkə və bir sıra nüfuzlu beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan arasında davamlı sülhün əldə olunmasına dəstəklərini ifadə edirlər. Belə dövlətlərdən biri də dost və qonşu Gürcüstandır. Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Ermənistanın razılığından dərhal sonra aidiyyəti qurumlarımızın rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm də üçtərəfli görüş keçirə bilərlər. Rəsmi Bakı Tbilisinin regionda sülhyaratma səylərini yüksək dəyərləndirir".

R.Mahmudov qeyd edib ki, Azərbaycan bütün platformalarda, diplomatik masalarda sülhü təşviq edir, bölgənin inkişafına çalışır, regionu sabitlik adası kimi görmək istəyir. Prezident İlham Əliyevin birgə mətbuat konfransında səsləndirdiyi fikirlər bunun sübutudur. Dövlətimizin başçısının Gürcüstana səfəri bütövlükdə Cənubi Qafqazın inkişafı üçün mühüm hadisələrlə yadda qaldı. Çağdaş dünya siyasətinin xarizmatik liderlərindən olan Prezident İlham Əliyevin siyasi kursu təkcə Azərbaycan üçün deyil, region ölkələri üçün də sülh, təhlükəsizlik, inkişaf və rifah gətirmək məramı daşıyır. Regionda reallaşdırılan bütün qlobal iqtisadi layihələrdən kənarda qalan Ermənistan bu həqiqəti dərk etməlidir. Cənubi Qafqazın tərəqqi yolunu Azərbaycan cızır, işğalçılıq hikkəsindən əl çəkməyən Ermənistan isə uğursuzluq zolağında çabalamaqda davam edir.

Reallıq onu göstərir ki, inkişafa gedən yol Azərbaycandan keçir. Ermənistan üçün isə gələcəyini müəyyənləşdirmək hələ də gec deyil.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-10 oktyabr.- S.7.